Azərbaycan Respublikasının
Biznes Mühiti və Beynəlxalq
Reytinqlər üzrə Komissiyası

# KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNDƏ İŞIQLANDIRILMIŞ MATERİALLARIN HƏFTƏLİK MONİTORINQİ

• 15–21 iyul 2024-cü il •

**ESG prinsiplərinin tətbiqi ilə bağlı analitik məqalə**

**16.07.2024**

trend.az

## Yerli bizneslər ESG və “yaşıl gündəliyə” hazır olmaq üçün nə etməlidir?




ESG, yəni “ətraf mühiti, sosial və idarəetmə” dünya miqyasında 1970-ci illərin sonlarından ABŞ və Avropa ölkələrində inkişaf edən və tanınan konsepsiyadır. ESG konsepsiyası bir şirkətin ətraf mühitə və cəmiyyətə təsirini ölçmək üçün istifadə olunan etalonlar toplusunu ifadə edir və illər ərzində bizneslərin investisiya qərarlarının qəbul edilməsində vacib rol oynayır. ESG anlayışı ilk dəfə Birləşmiş Millətlər Təşkilatının Qlobal Sazişi (UN Global Compact) tərəfindən 2004-cü ildə dərc olunmuş “Who Cares Wins” adlı hesabatında təqdim edilib və bununla da ESG termini ilk dəfə geniş yayılıb və rəsmiləşdirilib. Hesabatda ESG amillərinin bir şirkətin fəaliyyətinə necə inteqrasiya ediləcəyi təsvir olunub və konsepsiyanın üç əsas komponentə - ətraf mühit, sosial və idarəetməyə (və ya korporativ idarəetməyə) bölündüyü izah olunub.

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransı və ya COP-un iştirakçılarının dövlətlər olmasına baxmayaraq, konfransın məqsədlərinə nail olmaq üçün əsas hədəf məhz bu dövlətlərin biznes dairələridir. Bu baxımdan COP29 eyni zamanda Azərbaycanın biznes sektoru üçün ESG fəaliyyətinə

Ekoloji, sosial və korporativ idarəetmə (ESG) prinsiplərinin tətbiqinin stimullaşdırılması və təşviqi üzrə 2024-cü il üçün Yol Xəritəsi 27.03.2024-cü il tarixində təsdiq olunub.

başlamaqda “ev tapşırığı” rolunu oynayır. Bu kontekstdə istər konfransın, istərsə də dövlətin “yaşıl gündəlik” məqsədlərinə çatmaq üçün artıq indidən dövlət və biznes arasında operativ və səmərəli sinerjinin qurulması zəruridir.

Yerli bizneslərin ümumdünya və milli dayanıqlı məqsədlərə çatmasında ESG prinsiplərinin, yəni ətraf mühitə məsuliyyətli münasibətin, böyük sosial məsuliyyətin, yüksək korporativ idarəetmə və biznes-etika, eyni zamanda işgüzar mədəniyyətə hədəflənən fəaliyyətin rolu böyükdür. Çünki məhz bizneslər “cəmiyyət, biznes və dövlət” üçlüyünün özəyidir, bizneslər dövlətin siyasətini tətbiq edən və daxildə müvafiq alətlər yaradan real subyektlərdir.

Yerli bizneslər öz fəaliyyətlərinin dayanıqlı inkişaf və “yaşıl gündəlik” məqsədləri naminə ən azından növbəti beş il üçün aydın baxışla çıxış etməyə hazır olmalı və öz prioritetlərini dəqiq müəyyən etməlidirlər. Bunun üçün artıq bu gün yerli şirkətlər qlobal dayanıqlı inkişaf məqsədlərinə nail olmaq üçün: (i) ilk növbədə öz bizneslərinin ESG diaqnostikasını və auditini aparmağa; (ii) öz bizneslərinin dayanıqlı inkişafa yönəlmiş fəaliyyətin aparılmasına dair ESG strategiyasını və məqsədlərini müəyyən etməyə; (iii) daxili qaydalar və siyasətlər toplusunu hazırlamağa; (iv) ESG baxışlarının tətbiqi üçün ESG yol xəritələrini tərtib etməyə və (v) ESG hesabatlılıq sistemini yaratmağa və aparmağa hazır olmalıdırlar.

Biznesin ESG prinsiplərinə uyğunluğu birbaşa onun maliyyə vəziyyətinə və investisiya cəlbediciliyinə təsir edir, biznesə yeni imkanlar və üstünlüklər, yəni aşağıdakı mühüm “sosial dividendlər” almağa imkan verir:

- şirkətə etibarın artması - istər investorlar, istərsə də müştərilər bazarda məsuliyyətli və dayanıqlı brendlərlə əməkdaşlıq etmək niyyətindədirlər;
- uzunmüddətli perspektivdə istehsal xərclərinin azaldılması - bu təkcə şirkətin maliyyə vəziyyətinin deyil, həm də qlobal iqtisadiyyatın əhəmiyyətli dərəcədə yaşıllaşdırılması və sağlamlaşdırılması deməkdir;
- rəqiblərdən öndə olma - daha çox investorları və müştəriləri cəlb etmək, şirkətin brendinin və nüfuzunun gücləndirməsi;
- şirkətin ESG prinsiplərinə sadiqliyi birbaşa onun investisiya cəlbediciliyinə təsir edir. Belə ki, ekspertlərin fikrincə bu gün dünyada 80 trilyon

Ekoloji, sosial və korporativ idarəetmə (ESG) prinsiplərinin tətbiqinin stimullaşdırılması və təşviqi üzrə 2024-cü il üçün Yol Xəritəsi 27.03.2024-cü il tarixində təsdiq olunub.

dollardan çox investisiyaların verilməsində bu və ya digər şəkildə ESG amilləri nəzərə alınır və artıq bugünkü investorlar yüksək ESG reytinqi olmayan aktivlərə investisiya qoymamaq niyyətlərini açıq bəyan edirlər.

**Qeyd:** Azərbaycanda ESG-nin geniş təşviqi, bu istiqamətdə dövlət və özəl sektorun səylərinin birləşdirilməsi və konseptual baxışın formalaşdırılaraq həyata keçirilməsinin təmin edilməsi məqsədilə 30 sentyabr 2022-ci il tarixində Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın "Korporativ idarəetmə, investisiyalar və korporativ sosial məsuliyyət" işçi qrupunun "Ekoloji, sosial və korporativ idarəetmə standartları" üzrə altqrupu yaradılıb. Altqrupa Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) rəhbərlik edir. Altqrupun tərkibinə dövlət, özəl və ictimai sektoru təmsil edən 20-yə yaxın qurum və təşkilatın nümayəndələri daxildir.

**Leyla Sadıxova**

*"PWC Azərbaycan" şirkətinin Hüquq, dayanaqlılıq və ESG üzrə Baş meneceri, Azərbaycan Respublikasının Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyasının Ekoloji, sosial və korporativ idarəetmə (ESG) standartları üzrə altqrupun üzvü*

Bu material "Ekoloji, sosial və korporativ idarəetmə prinsiplərinin tətbiqinin stimullaşdırılması və təşviqi üzrə 2024-cü il üzrə Yol Xəritəsi"nin 8-ci bəndi üzrə maraqlı tərəflərin məlumatlandırılması məqsədilə hazırlanıb.

**Mənbə:**

https://az.trend.az/azerbaijan/society/3923999.html

**Digər saytlar və portallar**

1. https://news.milli.az/economy/1218705.html
2. https://news.day.az/world/1675278.html
3. https://banco.az/az/news/yerli-biznesler-esg-ve-yasil-gundeliye-hazir-olmaq-ucun-ne-etmelidir
4. https://valyuta.az/az/biznes/51871/yerli-biznesler-esg-ve-ldquoyasil-gundeliyerdquo-hazir-olmaq-ucun-ne-etmelidir/
5. https://fins.az/biznes/320368/yerli-biznesler-esg-ve-ldquoyasil-gundeliyerdquo-hazir-olmaq-ucun-ne-etmelidir/
6. https://rockvell.com/?p=26018
7. https://vergiler.az/news/economy/31020.html

Ekoloji, sosial və korporativ idarəetmə (ESG) prinsiplərinin tətbiqinin stimullaşdırılması və təşviqi üzrə 2024-cü il üçün Yol Xəritəsi 27.03.2024-cü il tarixində təsdiq olunub.

**“Su şəbəkəsinə qoşulma” işçi qrupunun iclası**

**17.07.2024**

azertag.az

# Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın “Su şəbəkəsinə qoşulma” işçi qrupunun növbəti iclası keçirilib



Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın “Su şəbəkəsinə qoşulma” işçi qrupunun növbəti iclası keçirilib.

Açılış nitqi ilə çıxış edən Komissiya Katibliyinin rəhbəri Vüsal Şıxəliyev iclasın gündəliyi haqqında məlumat verib, su şəbəkələrinə qoşulması sahəsində işçi qrupunun il ərzində həyata keçirdiyi fəaliyyətini yüksək qiymətləndirərək, beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması istiqamətində əldə olunan nailiyyətlərə diqqət çəkib.

İşçi qrupun rəhbəri, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi sədrinin müşaviri Etibar Məmmədov ötən müddət ərzində görülən işlər və qarşıda duran vəzifələr barədə danışıb.

Gündəliyə uyğun olaraq “Tikinti obyektlərinin su təchizatı və tullantı sularının axıdılması sisteminə qoşulması Qaydası”nın həyata keçirilməsi ilə bağlı görülən işlər və qarşıda duran vəzifələr barədə təqdimat iclas iştirakçılarının diqqətinə çatdırılıb və bu qaydalardan irəli gələrək zəruri tədbirlərin görülməsi ilə bağlı məsələlər müzakirə edilib.

Su təchizatı və kanalizasiya sistemlərinə qoşulma üçün “Vahid pəncərə” sisteminin qurulması, iş prinsipi və hazırkı

“Kommunal xidmətlər (su təchizatı)” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 20.05.2024-cü il tarixində təsdiq olunub.

status, sistemə daxil olacaq məlumatların emal olunması, aidiyyəti dövlət qurumlarına ötürülməsi və görüləcək işlər barədə məlumatlar təqdim edilib.
Dünya Bankı Qrupunun “Business Ready” layihəsinin “Kommunal xidmətlər (su təchizatı)” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair cari il üzrə Yol Xəritəsinin cari ilin birinci yarımilliyində icrası başa çatan tədbirlər barədə təqdimat iclas iştirakçılarının diqqətinə çatdırılıb.
İclasda Azərbaycan Respublikasının Prezidenti Administrasiyasının nümayəndələri, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin məsul vəzifəli şəxsləri və işçi qrupuna üzv olan digər aidiyyəti qurumların nümayəndələri iştirak ediblər.
Qeyd olunub ki, Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın “Su şəbəkəsinə qoşulma” işçi qrupuna rəhbərliyi Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi həyata keçirir.

**Mənbə:**

https://azertag.az/xeber/biznes_muhiti_ve_beynelxalq_reytinqler_uzre_komissiyanin_su_sebekesine_qosulma_ischi_qrupunun_novbeti_iclasi_kechirilib-3099794

**Digər saytlar və portallar**

1. https://www.7news.az/az/su-sebekesine-qosulma-uzre-isci-qrupunun-nvbeti-iclasi-kecirildi-fotolar/
2. https://qafqazinfo.az/news/detail/441890
3. https://qaynarinfo.az/az/su-sebekesine-qosulma-isci-qrupunun-noevbeti-iclasi-kecirildi-foto
4. https://adalet.az/az/posts/detail/su-sebekesine-qosulma-isci-qrupunun-novbeti-iclasi-kecirildi-foto-1721132091
5. https://azxeber.com/az/biznes-muhiti-ve-beynelxalq-reytinqler-uzre-komissiyanin-su-sebekesine-qosulma-isci-qrupunun-nvbeti-iclasi-kecirildi/sosial/
6. https://sabahinfo.az/posts/detail/su-sebekesine-qosulma-isci-qrupunun-novbeti-iclasi-kecirildi-foto-1721132233
7. https://ikisahil.az/post/532123
8. https://www.bakupost.az/az/su-sebekesine-qosulma-isci-qrupunun-novbeti-iclasi-kecirildi-foto
9. https://fed.az/az/diger/su-sebekesine-qosulma-isci-qrupunun-novbeti-iclasi-kecirildi-fotolar-205042
10. https://missiya.az/75267-su-sebekesine-qosulma-isci-qrupunun-iclasi-kecirildi.html
11. https://azadmedia.az/gundem/100718-.html
12. https://modern.az/tehsil/478946
13. https://unikal.az/news/439853

“Kommunal xidmətlər (su təchizatı)” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 20.05.2024-cü il tarixində təsdiq olunub.

**Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın iştirakı ilə "B2G Forum"**

**17.07.2024**

azertag.az

## "Caspian Energy Club"ın üzvləri ilə görüş




"Caspian Energy Club"ın təşkilatçılığı və Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin İqtisadi islahatların monitorinqi, koordinasiyası və qiymətləndirilməsi sektorunun müdiri, Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın Katibliyinin rəhbəri Vüsal Şıxəliyevin iştirakı ilə növbəti "B2G Forum" keçirilib. Bu barədə "Caspian Energy Club"ın sədri və qrupun baş icraçı direktoru Telman Əliyev bildirib.

"B2G Forum"da iqtisadiyyatın həm neft, həm də qeyri-neft sektorunu təmsil edən bir sıra dövlət, özəl şirkətlərin top-menecerləri və nümayəndələri iştirak edib.

İştirakçıları salamlayan tədbirin fəxri qonağı Vüsal Şıxəliyev "Caspian Energy Club"a təşəkkürünü bildirib və klub üzvləri ilə əməkdaşlığın inkişafı üçün əlindən gələn töhfələri verməyə davam edəcəyini vurğulayıb.

"B2G Forum" çərçivəsində Vüsal Şıxəliyev tərəfindən "Biznes mühitinin daha da yaxşılaşdırılması üzrə prioritetlər və özəl sektorla əməkdaşlıq" barədə edilən təqdimat iştirakçılar tərəfindən böyük maraqla qarşılanıb və interaktiv fikir mübadiləsi ilə müşayiət olunub.

Vüsal Şıxəliyevin sözlərinə görə, Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 2016-cı il iyulun 13-də yaradılan Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiya effektiv koordinasiya, davamlı əməkdaşlıq və inklüzivliyə əsaslanan idarəetmə modeli

"Caspian Energy Club" dünyanın 50 ölkəsindən 5 mindən çox şirkəti birləşdirən regional təşkilatdır. "Caspian Energy Club"ın əsas məqsədi Azərbaycanda və "Caspian Energy Club"ın fəaliyyət göstərdiyi digər ölkələrdə investisiya və işgüzar mühitin yaxşılaşdırılmasından, həmçinin B2G, B2B və B2C formatlarında dialoqların stimullaşdırılmasından və onlarda fəal iştirak etməkdən ibarətdir.

əsasında biznes mühiti islahatlarının sürətləndirilməsinə mühüm töhfə verməkdədir.

“Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən “İqtisadi İslahatların İdarəedilməsi Modeli” İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Dövlət Xidmətlərində İnnovasiyaların Observatoriyası (OPSI) platformasında Azərbaycandakı “İqtisadi İslahatların İdarəedilməsi Modeli” nümunəvi innovativ təcrübə kimi rəsmən qəbul olunub”, - deyə Vüsal Şıxəliyev bildirib.

Vüsal Şıxəliyev 2023-2024-cü illər ərzində komissiya çərçivəsində irəli sürülən bir sıra iqtisadi təşəbbüslər, hazırlanmış islahat layihələri haqqında geniş məlumat təqdim edib: “Bu dövr ərzində Komissiya müvafiq dövlət qurumlarının rəhbərliyi altında 35-dən çox normativ-hüquqi aktın layihəsini hazırlayıb, biznes mühitinin əlverişliliyinin artırılmasına xidmət edən mühüm qanunvericilik sənədləri qəbul olunub, yeni elektron xidmətlər və platformalar istifadəyə verilib, elektron sistemlərin tətbiq dairəsi genişləndirilib”.

Cari il üçün olan prioritet istiqamətlərdən danışan Vüsal Şıxəliyev, biznes startapları üçün rəqəmsal dövlət xidmətlərinin genişləndirilməsi, “yaşıl binalar” və “yaşıl tikinti” ilə bağlı norma və standartların hazırlanması və qəbulu, daşınmaz əmlakın ilkin qeydiyyatı üzrə elektron sistemin yaradılması, su şəbəkəsinə qoşulma üzrə tələb olunan prosedurların, müddətin və xərclərin azaldılması və bir pəncərə prinsipinin tətbiqi, dövlət məşğulluq xidmətlərinin rəqəmsallaşma səviyyəsinin artırılması, yaşıl maliyyələşmə kimi layihələri xüsusi vurğulayıb.

“Bundan əlavə, Rəqəmsal İdarəetmə Platforması yeni iqtisadi təşəbbüslərin tətbiqinin daha da sürətlənməsinə təkan verəcək. Bu platformadan əsas gözləntilərimiz qanunvericilik təşəbbüslərində elektron iştirak, işçi qrupların iclaslarında müzakirə üçün təklif və layihələrin elektron qaydada göndərilməsi, işçi qrupları ilə interaktiv əlaqənin yaradılması, biznes sahələri üzrə yeni təşəbbüs layihələri barədə qabaqcadan ətraflı məlumatın alınması və s. bu kimi istiqamətləri qeyd etmək vacibdir”, - deyə Vüsal Şıxəliyev bildirib.

“B2G Forum”da, həmçinin “Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiya”, “2023-2024-cü illər ərzində aparılan ən son iqtisadi islahatlar” barədə təqdimatlar dinlənilib.

“Caspian Energy Club” dünyanın 50 ölkəsindən 5 mindən çox şirkəti birləşdirən regional təşkilatdır. “Caspian Energy Club”ın əsas məqsədi Azərbaycanda və “Caspian Energy Club”ın fəaliyyət göstərdiyi digər ölkələrdə investisiya və işgüzar mühitin yaxşılaşdırılmasından, həmçinin B2G, B2B və B2C formatlarında dialoqların stimullaşdırılmasından və onlarda fəal iştirak etməkdən ibarətdir.

Daha sonra Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin İqtisadi islahatların monitorinqi, koordinasiyası və qiymətləndirilməsi sektorunun baş məsləhətçisi Elvira Siraczadə tərəfindən təqdim olunan "Dünya Bankının "Business Ready" hesabatı dinlənilib.
Davos formatlı sual-cavab sessiyası çərçivəsində Rəqəmsal İdarəetmə Platformasının idarəetmə paneli, funksional alətlər və nəzarət sistemi, Elektron Məlumatlandırma Sistemi, komissiyanın internet portalındakı əsas yeniliklər mövzular geniş işıqlandırılıb, iştirakçıları maraqlandıran suallar cavablandırılıb, problemlər dinlənilib, sözügedən mövzular ətrafında fikir mübadiləsi aparılıb.
Sonda Telman Əliyev tədbirin fəxri qonağı Vüsal Şıxəliyevə görüşə qatıldığına və iştirakçılarla səmimi ünsiyyətinə görə təşəkkürünü bildirib və "Caspian Energy Club"ın fəxri üzvlük sertifikatını təqdim edib. Eyni zamanda, "Caspian Energy Club"ın yeni üzvlərinə üzvlük sertifikatları təqdim olunub. "B2G Forum" şirkət nümayəndələrinin ünsiyyəti üçün təşkil edilmiş netvörkinq hissəsi ilə yekunlaşıb.

**<u>Mənbə:</u>**

https://azertag.az/xeber/__vusal_sixeliyev_caspian_energy_clubin_uzvleri_ile_gorusub-3100582

**<u>Digər saytlar və portallar</u>**

1. https://baku.news/iqtisadiyyat/71976-vusal-shixeliyev-caspian-energy-clubin-uzvleri-ile-gorushub.html
2. https://oxu.az/iqtisadiyyat/sektor-mudiri-dasinmaz-emlakin-ilkin-qeydiyyati-uzre-elektron-sistem-yaradilacaq
3. https://oxu.az/iqtisadiyyat/vusal-sixeliyev-biznes-xidmetlerinin-reqemsallasma-seviyyesi-artirilacaq
4. https://oxu.az/cemiyyet/azerbaycanda-tikinti-ile-bagli-yeni-standartlar-qebul-olunacaq-sektor-mudiri-aciqladi

"Caspian Energy Club" dünyanın 50 ölkəsindən 5 mindən çox şirkəti birləşdirən regional təşkilatdır. "Caspian Energy Club"ın əsas məqsədi Azərbaycanda və "Caspian Energy Club"ın fəaliyyət göstərdiyi digər ölkələrdə investisiya və işgüzar mühitin yaxşılaşdırılmasından, həmçinin B2G, B2B və B2C formatlarında dialoqların stimullaşdırılmasından və onlarda fəal iştirak etməkdən ibarətdir.

**“Maliyyə bazarlarının inkişafı və kreditlərin əlçatanlığı” İşçi qrupunun iclası**

**18.07.2024**

**fins.az**

# “Maliyyə bazarlarının inkişafı və kreditlərin əlçatanlığı” İşçi qrupunun növbəti iclası keçirilib



Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın “Maliyyə bazarlarının inkişafı və kreditlərin əlçatanlığı” İşçi qrupunun 18 iyul 2024-cü il tarixində Mərkəzi Bankın əsas inzibati binasında növbəti iclası keçirilib.

İclasda Dünya Bankı Qrupunun “Business Ready” hesabatının “Maliyyə xidmətləri” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi təqdim edildi. Təqdimatda qeyd olundu ki, Yol Xəritəsində yaşıl maliyyə üzrə hüquqi çərçivənin təkmilləşdirilməsi, kredit büroları və reyestrlərin fəaliyyətinin gücləndirilməsi, gender maliyyəsinin təşviqi, habelə praktikada maliyyə xidmətlərinin əldə edilməsinin səmərəliliyinin artırılması kimi mühüm tədbirlərin icrası nəzərdə tutulub. Həmçinin, İşçi qrupun 30 aprel tarixli əvvəlki iclasında qəbul edilmiş qərarların icra vəziyyəti barədə görüş iştirakçıları məlumatlandırıldı. İclasda İşçi qrupun 2024-cü il üzrə Fəaliyyət Planı çərçivəsində 1-ci yarımil ərzində görülmüş işlər barədə də ətraflı məlumatlar təqdim edildi və müzakirələr aparıldı.

İclasda Azərbaycan Respublikası Prezidentinin

“Maliyyə bazarlarının inkişafı və kreditlərin əlçatanlığı” işçi qrupunun 2024-cü il üçün Fəaliyyət Planı” 13.02.2024-cü il tarixində təsdiq olunub.

Administrasiyasının, Nazirlər Kabinetinin, Mərkəzi Bankın, İqtisadiyyat Nazirliyinin, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin, Maliyyə Nazirliyinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Dövlət Neft Fondunun, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin, Sahibkarlığın İnkişafı Fondunun, İpoteka və Kredit Zəmanət Fondunun, Azərbaycan Kredit Bürosunun, habelə Azərbaycan Banklar Assosiasiyası, Azərbaycan Sığortaçılar Assosiasiyası, Azərbaycan Mikromaliyyə Assosiasiyası, Azərbaycan Fond Bazarı İştirakçılarının Assosiasiyasının nümayəndələri və özəl sektorun İşçi qrupunda təmsil olunan üzvləri iştirak etdi.
Məlumat üçün qeyd edək ki, Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın "Maliyyə bazarlarının inkişafı və kreditlərin əlçatanlığı" işçi qrupuna rəhbərliyi Mərkəzi Bank həyata keçirir.

**Mənbə:**
https://fins.az/bank/320619/ldquomaliyye-bazarlarinin-inkisafi-ve-kreditlerin-elcatanliirdquo-isci-qrupunun-nvbeti-iclasi-kecirilib/

## Digər saytlar və portallar

1. https://businesstime.az/maliyye-bazarlarinin-inkisafi-ve-kreditlerin-elcatanligi-isci-qrupunun-novbeti-iclasi-kecirilib
2. https://innews.media/az/news/id-33579
3. https://www.financetime.az/news/news-view.php?id=36796
4. https://azadmedia.az/gundem/100864-.html
5. https://report.az/maliyye-xeberleri/vusal-sixeliyev-azerbaycan-kredit-almagin-asanligina-gore-109-olke-arasinda-1-cidir/
6. https://xalqqazeti.az/az/last-news/187316

"Maliyyə bazarlarının inkişafı və kreditlərin əlçatanlığı" işçi qrupunun 2024-cü il üçün Fəaliyyət Planı" 13.02.2024-cü il tarixində təsdiq olunub.

**“Texnologiya və innovasiyalar” İşçi qrupunun iclası**

**19.07.2024**

# Azərbaycanda dövlət-biznes formatında texnologiya və innovasiyalar sahəsində əməkdaşlıq müzakirə olunub



Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın “Texnologiya və innovasiyalar” işçi qrupunun növbəti iclası keçirilib.

"Report" Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə istinadən xəbər verir ki, iclasda Komissiya Katibliyinin rəhbərliyi, işçi qrupun rəhbəri və üzvləri, özəl sektor iştirakçıları və media nümayəndələri iştirak ediblər.

Komissiya Katibliyinin rəhbəri Vüsal Şıxəliyev açılış çıxışı edərək ölkənin Qlobal İnnovasiya İndeksindəki göstəricilərinin yaxşılaşdırılmasında işçi qrupun fəaliyyətinin mühüm rol oynadığını qeyd edib. Bu istiqamətdə həm işçi qrup daxilində, həm də digər qrup və altqruplarla əməkdaşlığın və kommunikasiyanın davamlılığının vacibliyini vurğulayıb.

İşçi qrupun rəhbəri, rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Samir Məmmədov bildirib ki, bu ilin birinci yarımili üzrə icra müddətləri yaxınlaşan və ya bitən tədbirlərin statusları barədə işçi qrupu çərçivəsində kommunikasiya davamlı olaraq aparılıb. S. Məmmədov həmçinin tədbirlərin tam və vaxtında icrası məqsədilə hər

“Texnologiya və innovasiyalar” işçi qrupunun 2024-cü il üzrə Fəaliyyət Planı 08.04.2024-cü ildə təsdiq olunub.

bir qurum tərəfindən zəruri tədbirlərin görülməsinin yüksək qiymətləndirildiyini qeyd edib.
O, işçi qrupun iclasında dövlət qurumlarının və özəl sektor nümayəndələrinin iştirak etməsinin növbəti yarımil üzrə hədəflərin müəyyənləşdirilməsinə töhfə verdiyini vurğulayıb.
Daha sonra, iclasın gündəliyinə uyğun olaraq, dövlət qurumlarının nümayəndələri tərəfindən işçi qrupun 2024-cü ilin birinci yarımili üzrə görülmüş işlərin hesabatları və növbəti yarımil üzrə qarşıya qoyulmuş hədəflər müzakirə edilib.
Həmçinin özəl sektor nümayəndələrinin sualları və təklifləri dinlənilib.
Tədbirdə qonaq qismində "Caspian Energy Club"ın rəhbəri və İnformasiya Texnologiyaları üzrə üzvləri iştirak edib, dövlət-biznes dialoqu formatında texnologiya və innovasiyalar sahəsində mühüm yeniliklər və əməkdaşlıq imkanları müzakirə olunub.
İclasda səsləndirilmiş fikirlər əsasında işçi qrupu tərəfindən müvafiq təkliflər verilib və qərarlar qəbul edilib.

**Mənbə:**

https://report.az/ikt/azerbaycanda-dovlet-biznes-formatinda-texnologiya-ve-innovasiyalar-sahesinde-emekdasliq-muzakire-olunub/

**Digər saytlar və portallar**

1. https://musavat.com/news/texnologiya-ve-innovasiyalar-isci-qrupunun-birinci-yarimil-uzre-fealiyyete-dair-novbeti-iclasi-kecirilib_1086723.html
2. https://modern.az/tehsil/479438
3. https://unikal.az/news/440320
4. https://www.gununsesi.info/az%c9%99rbaycanda-dovl%c9%99t-biznes-formatinda-texnologiya-v%c9%99-innovasiyalar-sah%c9%99sind%c9%99-%c9%99m%c9%99kdasliq-muzakir%c9%99-olunub/
5. https://qaynarinfo.az/az/texnologiya-ve-innovasiyalar-isci-qrupunun-noevbeti-iclasi-kecirildi-foto
6. https://operativmedia.az/post/58432/dovlet-biznes-formatinda-texnologiya-ve-innovasiyalar-sahesinde-emekdasliq-muzakire-olunub
7. https://azertag.az/xeber/texnologiya_ve_innovasiyalar_ischi_qrupunun_birinci_yarimil_uzre_fealiyyete_dair_novbeti_iclasi_kechirilib-3104798
8. https://xalqqazeti.az/az/last-news/187352

"Texnologiya və innovasiyalar" işçi qrupunun 2024-cü il üzrə Fəaliyyət Planı 08.04.2024-cü ildə təsdiq olunub.